TKTA

Elektron Ərizə Sistemi vasitəsilə ödəniş etmək barədə

# TƏLİMAT

## Ərizənin təsdiq olunması

Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması üzrə sənədlərin qəbulu və ekspertizasının keçirilməsi üçün 250 AZN xidmət haqqı ödənilməlidir. Ödəniş həyata keçirilmədiyi müddətcə elektron müraciətlər tamamlanmamış hesab ediləcəkdir.

Elektron Ərizə Sistemində tələb olunan məlumatları və sənədləri düzgün qaydada yüklədikdən sonra ərizəni təsdiq etmək üçün ödənişin həyata keçirilməsi mümkündür:







Şəxsi kabinetə daxil olduqda məlumatları və sənədləri tamamlamadan bir başa ödəniş bölməsinə keçid etmək üçün "ödəniş kodu" bölməsinə sıxmaq kifayətdir:




Ödənişin həyata keçirilməsi üçün bir sıra vasitələr mövcuddur:

1) Bank kartı vasitəsilə;

2) Hökümət ödəmə portalı vasitəsilə;

3) Poçt və ya bank vasitəsilə.

## Bank kartı ilə ödəniş

Müraciətçi ödəniş bölməsində bank kartının ilk 6 rəqəmini müvafiq bölməyə daxil etdikdə kart məlumatlarının təsdiq olunması üçün yeni səhifəyə yönləndirilir. Müvafiq məlumatları daxil etdikdən sonra ödənişi təsdiq etmək kifayətdir:




## Hökümət ödəmə portalı vasitəsilə ödəniş

Hökümət ödəmə portalı ilə ödəniş həyata keçirmək üçün www.gpp.az saytına daxil olaraq, “bütün ödənişlər” bölməsinə keçid etmək lazımdır:




Ardınca “Təhsil” hissəsində “Təhsil Nazirliyi” adlanan bölmə seçilməlidir:




Müraciətçi sahib olduğu ödəniş kodunu “Ödəyici kodu” bölməsinə daxil etməklə “ödəniş et” düyməsinə sıxmalıdır. Beləcə, kart məlumatlarının qeyd olunması və ödənişin təsdiq edilməsi üçün yekun səhifəyə keçid ediləcəkdir:


Təhsil Nazirliyi
Ödəyici kodu
[redacted]
Axtar
Təhsil Nazirliyi
Hamısını sil
İstifadəçi
İdentifikasiya kodu
Sənəd nömrəsi
Sənədin tarixi
Xidmət növü
Məbləğ (AZN)
[redacted]
[redacted]
10908835
30.10.2020
250.00
Yeni ödəniş əlavə et
Ödəniş et


Kart
Kartın ilk 6 rəqəmini daxil edin
Ödənişlər
Təhsil Nazirliyi
29C6034201
250,00 AZN
Xidmət haqqı
0,40 AZN
Toplam:
250,40 AZN
İrəli




## Poçt və ya bank vasitəsilə ödəniş

Xidmət haqqının poçt və ya bank xidməti vasitəsilə ödənilməsi mümkündür. Bunun üçün aşağıdakı addımlar həyata keçirilməlidir:



**DİQQƏT!!!** Vasitədən asılı olmayaraq ödənişi həyata keçirdikdən sonra müraciətçilər şəxsi kabinetə daxil olaraq öz ərizələrini təsdiq etməlidirlər. Əks halda müraciətlər tamamlanmamış hesab ediləcəkdir:




## Dublikat şəhadətnamə əldə etmək üçün ödənişin həyata keçirilməsi

Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması haqqında şəhadətnamənin itirilməsi və ya korlanması halında, dublikat şəhadətnamənin əldə olunması mümkün hesab edilir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 24 dekabr tarixli, 507 nömrəli Qərarına əsasən, xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması haqqında şəhadətnamənin itirilməsi və ya korlanması ilə əlaqədar yenidən verilməsi üçün müraciətçilər 20 AZN xidmət haqqı ödəməlidirlər.

Qeyd olunan xidmətə görə ödənişi hökümət ödəmə portalı (HÖP) vasitəsilə aşağıdakı qaydada həyata keçirmək mümkündür:


gpp.az/WebPortal/Infosite
HÖKUMƏT
ÖDƏNİŞ PORTALI
AZ
Məzənnə
Kömək
Qeydiyyatsız rejimdə ən çox istifadə edilən ödənişlər
ACLL
Azercell Telekom MMC
DGK
Dövlət Gömrük Komitəsi
STO
Stasionar Telefon Operatorları
BO
Bələdiyyələr
YASAT
YAŞAT Fondu
BÜTÜN ÖDƏNİŞLƏR


Yardım fondları
ASAN
SMART
RABİTƏ
KREDİT
TƏHSİL
SIĞORTA
ATM
Ali Təhsil Müəsisələri
MKTM
Məktəbdənkənar təhsil müəssisələri
DIM
Dövlət İmtahan Mərkəzi
TN
Təhsil Nazirliyi


HÖKUMƏT
ÖDƏNİŞ PORTALI
AZ
Məzənnə
Kömək
Portala giriş
Qeydiyyatsız ödənişlər
Təhsil Nazirliyi
Şəxsiyyət vəsiqəsinin FIN kodu
Axtar
Yeni ödəniş əlavə et
Ödəniş et


Ödəniş növünü seçin
Təhsil Nazirliyi
[redacted]
- Digərləri
142595 - Peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə edilmiş biliklərin qiymətləndirilməsi üçün müvafiq ixtisas üzrə test imtahanının keçirilməsi
142595 - Peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə edilmiş bacarıq, səriştə və təcrübənin müvafiq ixtisasın təhsil proqramının (kurikulumun) bir modulu üzrə qiymətləndirilməsi
142595 - Peşə təhsili üzrə qeyri-formal və informal təhsil formaları vasitəsilə əldə edilmiş bilik, bacarıq, səriştə və təcrübənin qiymətləndirilməsinin və tanınmasının nəticəsi olaraq verilmiş peşə təhsili sənədinin (diplom, sertifikat) itirilməsi və ya korlanması ilə əlaqədar yenidən verilməsi
142595 - Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması haqqında şəhadətnamənin itirilməsi və ya korlanması ilə əlaqədar yenidən verilməsi
İmtina
Əlavə edin